# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Çıxışlar

### Fəttah Heydərov
### Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı

**Hörmətli müşavirə iştirakçıları!**



Çox şadam ki, biz yenə bir yerdəyik. Mən bu günki yığıncaqda 2014-cü ildə rayonda görülmüş işlərə dair rayon icra hakimiyyəti başçısının məruzəsini və bununla əlaqədar çıxışları məmnuniyyətlə dinlədim. İnkişaf, görülmüş işlərin nəhəngliyi göz qabağındadır. Bu barədə qısaca danışıldı. Əgər mən də görülmüş işlər barədə geniş danışsam bizə bir gün bəs eləməz.

Mən 1995-ci ildən sizinlə bir yerdəyəm. Saysız-hesabsız yığıncaqlarımız, müşavirələrimiz sizinlə birlikdə olub. Yadınızdadır, biz həmin illərdə kiçik, soyuq salonlarda, sinif otaqlarında yığıncaqlar keçirirdik. Sonralar rayonda istirahət turizm və sağlamlıq ocaqları, kompleksləri tikildi, biz toplantıları həmin obyektlərin zallarında keçirirdik. İki il bundan öncə Qəbələ şəhərində müasir mədəniyyət mərkəzi istifadəyə verildi. Biz yığıncaqlarımızı həmin mərkəzdə keçirməyə başladıq. Bu gün yığıncaq keçirdiyimiz Heydər Əliyev adına Konqres Mərkəzinin konfrans zalında isə nəinki ölkə, hətta dünya miqyaslı tədbirlərin yüksək səviyyədə keçirilməsinə imkan var. Bu onu göstərir ki, biz hansı sürətlə inkişaf edirik. Bu gün Azərbacan həyatın bütün sahələrində dinamik inkişafına görə dünyanın ən qabaqcıl ölkə başçılarının həsəd aparacağı bir dövlətə çevrilmişdir.

Hazırda Avropa, yaxın və orta Şərq ölkələrində gedən prosesləri görürsünüz. Avropa inflyasiya, Şərq ölkələri qarmaqarışıqlıq və xaos girdabında çırpınır. Hər tərəfdə qırğınlar, terror hadisələri baş verir, qan tökülür. Şükür Allaha ki, Azərbaycan bu hadisələrdən uzaqdır. Vaxtilə Azərbaycan da faciələr burulğanında idi. Ulu öndər Heydər Əliyev dühası sayəsində xalqımız bu bəladan qurtardı. Heydər Əliyev yolu bizi, bu sabitliyə, bu inkişafa gətirib çıxardı. Heydər Əliyevin müstəqillik dövründə Azərbaycana rəhbərlik etdiyi 10 il Azərbaycanı sabitliyə, inkişafa qovuşdurmağa həsr olunmuşdur. Biz bu günki nailiyyətlərdən danışarkən mütləq həmin şərəfli yola nəzər salmalı, keçmişdən dərs götürməliyik.

Şükürlər olsun böyük Allaha ki, ulu öndərin başlamış olduğu müqəddəs yolun davam etdirilməsi onun böyük siyasi təcrübəsindən dərs alıb yetkinləşmiş möhtərəm Prezidentimiz İlham Əliyevə etibar edildi. Xalqın böyük etimadına arxalanan möhtərəm Prezidentimiz ulu öndər Heydər Əliyev yolunu uğurla davam etdirir. Bu günkü müvəffəqiyyətlərimiz bunun nəticəsidir.

Möhtərəm Prezidentimizin Azərbaycana rəhbərlik etdiyi bu 11 ildə bütün sahələrdə inkişaf tempi 10 dəfələrlə, 20 dəfələrlə, bəzi sahələrdə isə 60 dəfələrlə ölçülür. Möhtərəm Prezidentimiz heç bir xarici qüvvədən asılı olmayaraq müstəqil siyasət yeridir. Dünyanın yenidən super güclər arasında nüfuz dairələrinə bölünməsi uğrunda gedən kəskin mübarizədə müstəqil siyasət yeritmək hər ölkə rəhbərinə nəsib olmur. Biz müstəqil siyasətin üstünlüyünü başa düşməliyik. Bu gün bəzi hegemon dövlətlərin məqsədi müxtəlif yollarla, xüsusən bəzi qeyri-hökumət təşkilatları və dini qurumlarla digər dövlətlərin, o cümlədən Azərbaycanın dövlətçiliyinə zərər vurmaqdı. Onların bəziləri bizi təsir dairəsinə daxil etməyə çalışırlar. Biz bu sahədə ayıq-sayıq olmalı, ayrı-ayrı adamların bu təsirlər altına düşməsinə yol verməməliyik.

Dünyada neftin qiymətinin düşməsi ilə bir sıra neft ölkələri böhran həddinə gəlib çatıblar. Biz isə apardan düzgün siyasət nəticəsində böhrandan kənardayıq. Hazırda ölkədə qeyri-neft sektorunda inkişaf tempi yüksələn xətlə davam edir.

Qəbələ kənd təsərrüfatı rayonudur. Hazırda burada kənd təsərrüfatı sürətlə inkişaf edir. Rayonda yaradılmış iki nəhəng heyvandarlıq kompleksində istehsal olunan ətin və südün miqdarı əvvəllər rayonun bütün kolxoz və sovxozlarında isthsal olunan ətin və südün miqdarından çoxdur.

Artıq Qəbələ dünyada tanınır. Altıncı ildir ki, burada beynəlxalq musiqi festivalları keçirilir. Dünyanın korifey musiqiçiləri bu möhtəşəm tədbirdə iştirak edir. Onlar Qəbələ əhalisinin klassik musiqiyə olan maragını görəndə heyranlıqlarını gizlədə bilmirlər.

Milli mədəniyyətimizin dünyada təbliği, eyni zamanda dünya mədəniyyətinin Azərbaycanda tanıdılmasında ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın misilsiz xidmətləri var. Mehriban xanım Əliyeva da möhtərəm Prezidentimiz İlham Əliyev kimi öz xeyirxah fəaliyyəti ilə xalqımızın sevimlisinə çevrilmişdir.

**Əziz dostlar!**

2015-ci ildə də qarşımızda mühüm məsələlərin həlli durur. Ümidvaram ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə biz sizinlə birlikdə bu vəzifələrin öhdəsindən şərəflə gələcəyik. Sizin hər birinizə bu yolda uğurlar arzulayıram.

### Əflatun Rufiyev,
### Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi.

**Hörmətli başçı!**
**Xanımlar və cənablar!**

İcazə verin əvvəlcə sizi və sizin şəxsinizdə bütün qəbələliləri ürəkdən salamlayım. Biz sizinlə birlikdə indicə rayon icra hakimiyyətinin başçısı, cənab Səbuhi Abdullayevin 2014-cü ildə Qəbələ rayonunda görülən işlərə dair hesabat məruzəsini dinlədik. Məruzədən göründü ki, əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də rayonun sosial-iqtisadi inkişafı davamlı olaraq inkişaf etmişdir. Mən ona görə çıxışımda bu məsələ üzərində dayanmaq istəmirəm. Ölkəmizdə indiyədək sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlara nəzər salmaq istərdim.



Bilirsiniz ki, müstəqil Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu strategiya qısa müddətdə ölkənin bütün sahələr üzrə dayanıqlı inkişafını təmin etdi. Ölkədə əlverişli siyasi, sosial-iqtisadi inkişaf üçün imkanlar yarandı, demokratik cəmiyyət quruldu. Daha sonra ölkədə böyük beynəlxalq layihələr həyata keçirildi.

Ölkə Prezidenti cənab İlham Əliyevin sonrakı illərdəki fəaliyyəti, söykəndiyi siyasi kurs əməli işə çevrildi. Yaxın günlərdə cənab Prezidentin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı, bir qədər sonra, yəni yanvar ayının 27-də Heydər Əliyev Mərkəzində regionların 2014—2018-ci illərdə sosial-iqtisadi inkirşafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransındakı çıxışlarında son 11 ildə ölkədə istər siyasi, istər sosial-iqtisadi sahələrdə görülən işlər, qazanılan uğurlar ətraflı təhlil olunmuş və cənab Prezidentin dərin düşüncə və təfəkkürü ilə yüksək qiymətləndirilmişdir. Son 11 ilə nəzər salsaq görərik ki, bu illər ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Yəni 2004-cü ildən sonra ölkədə ümumi daxili məhsul 3,4 dəfə artmışdır. Bu, dünya miqyasında rekord göstəricidir. Sənaye məhsulunun artımı 2,7 dəfəyə çatmışdır. Ötən on bir ildə ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. Təkcə ötən ildə isə bu göstərici 27 milyard dollar təşkil etmişdir. Bu məbləğin 16 milyard dolları daxili sərmayədir.

Ötən il qarşıya qoyulan vəzifələrdən biri də qeyri-neft sektorunun inkişaf etdirilməsi idi. Bu sahə 7 faiz artmışdır. İnfilyasiya isə çox aşağı səviyyədə, cəmi 1,4 faiz olmuşdur. Əhalinin pul gəlirlərinin artım həddi isə 4,8 faizi aşmışdır. Deməli, əhalinin gəlirləri infilyasiyanı 3 dəfə üstələmişdir.

Sosial sahədə uğurlu inkişaf təmin olunmuşdur. Bir il ərzində 60-dan çox tibb mərkəzi, 50-dən artıq məktəb binası tikilmiş, bir çox yollar yenidən tikilmiş, körpülər salınmış, 123 min yeni iş yerləri açılmış, ölkədə orta aylıq əməkhaqqı 600 dollara yaxınlaşmışdır. 400 min insana ünvanlı sosial yardım verilmişdir. Bütün pensiyalar və digər müavinətlər üzrə təminat da yaxşılaşmışdır. Eyni zamanda ötən il bir sıra irimiqyaslı layihələr həyata kecirilməsinə baxmayaraq Valyuta ehtiyatımız 50 milyard dollara çatmışdır. Dünya miqyasında bu sürətli artımlar ən gözəl göstəricilərdir.

Son 11 ildə görülən işləri və regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramının bir ilinin icrası vəziyyətini daha ətraflı təhlil etsək bizə saatlarla vaxt lazımdır. Ona görə də vaxtınızı cox almaq istəmirəm. Cənab Prezident Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ konflikti üzərində də dayanmış, ölkənin hazırki durumu üzrə vəziyyəti ətraflı təhlil etmiş, eyni zamanda dünyada davam edən siyasi proseslərə də toxunmuşdur. Ölkədə sosial-iqtisadi inkişaf tempinin 3 dəfədən çox artmasına baxmayaraq bəzi ölkələrdə heç artım müşahidə edilməmiş, bəzilərində isə bu artım cəmi bir faiz olmuşdur. Davos iqtisadi forumunun yekun hesabatına əsasən rəqabətqabiliyyətliliyə görə Azərbaycan dünya ölkələri arasında 38-ci yerdə qərarlaşmışdır.

Cənab Prezident çıxışında daha sonra qeyd etmişdir ki, 2015-ci il dünya ölkələri üçün ağır il olacaqdır. Lakin Azərbaycanda aparılan islahatlar əsasında inanıram ki, ölkəmiz 2015-ci ili də uğurla başa vuracaqır. Ölkə başçısı çıxışlarında həmçinin əhalinin müraciətlərinə, təklif və rəylərinə ciddi yanaşıldığını faktlarla qeyd etmiş və əmin olduğunu bildirmişdir ki, Azərbaycan xalqı 2015-ci ili də uğurla başa vuracaqdır. Mən də əminəm ki, qəbələlilər əvvəlki illərdə olduğu kimi yenə də cənab Prezident tərəfindən qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlmək üçün öz töhfələrini əsirgəməyəcək. Bu yolda hamınıza uğurlar və cansağlığı arzulayıram.